**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**Ə M R**

№ 45

**Bakı şəhəri** «20» iyun 2017 il

**"Həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər barədə"**

Dünyanın qabaqcıl ölkələrində istifadə olunan həkimlərin davamlı tibbi təhsil sistemi keyfiyyətli tibbi yardımın göstərilməsinə zəmin yaradır.

Azərbaycan Respublikası Prezidentinin 25 may 2006-cı il tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq ölkədə səhiyyə mütəxəssislərinin peşə bilik və bacarıqlarının təkmilləşdirilməsi prosesinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsinə dair müvəqqəti Qaydalar" təsdiq edilsin (əlavə olunur).

2. Səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, "Həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsinə dair müvəqqəti Qaydalar"ı öz işində rəhbər tutsunlar.

3. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru N.Qasımova tapşırılsın:

3.1. sinir xəstəlikləri, anesteziologiya və reanimatologiya, mikrobiologiya və epidemiologiya, otorinolarinqologiya və kardiologiya kafedraları üzrə davamlı tibbi təhsilin 2017/2018-ci tədris ilindən tətbiqi pilot layihəsi üçün təkmilləşdirmə kurslarının təşkili və proqramların hazırlanması, həmçinin sertifikasiyadan keçmək üçün sənədlərin qəbulu bu əmrin birinci bəndi ilə təsdiq edilmiş qaydalara əsasən təmin edilsin;

3.2. pilot layihəsinin nəticələrinə əsasən davamlı tibbi təhsil sisteminin digər ixtisaslar üzrə tətbiqi təmin edilsin.

4. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya və Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının sədri O.Seyidbəyova tapşırılsın ki, səhiyyə, elm və təhsil müəssisələri, peşəkar cəmiyyətlər və digər müəssisə və təşkilatlar tərəfindən keçirilən elmi və tədris tədbirlərinin davamlı tibbi təhsil üzrə akkreditə olunması barədə 1 ay müddətində təkliflər hazırlanaraq təqdim edilsin.

5. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya və Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, davamlı tibbi təhsil sistemi üzrə yeni tədris ilinədək elektron proqramın texniki tapşırığının və proqramın hazırlanması, həmçinin istifadəyə verilməsi təmin edilsin.

6. Mətbuat katibi L.Bayramovaya tapşırılsın ki, davamlı tibbi təhsil sisteminin tətbiqi ilə bağlı maarifləndirmə işləri aparılsın.
7. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
20.06. 2017-ci il tarixli 45 nömrəli
əmri ilə təsdiq edilmişdir

**Həkimlərin bilik və bacarıqlarının təkmilləşdirilməsinə dair müvəqqəti Qaydalar**

## 1. Ümumi müddəalar

1.1 Bu Qaydalar "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 48-ci maddəsinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar əhaliyə keyfiyyətli tibbi xidmət göstərilməsini təmin etmək məqsədi ilə praktik tibbi fəaliyyətlə məşğul olan həkimlərin və həkim-mütəxəssislərin (bundan sonra - həkim) davamlı tibbi təhsil prosesini tənzimləyir.

1.3. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.3.1. davamlı tibbi təhsil (bundan sonra DTT) –praktik tibb fəaliyyəti ilə məşğul olan həkimlərin bilik, bacarıq və peşəkar vərdişlərinin inkişaf etdirilməsinə yönəldilmiş təhsil prosesi;

1.3.2. DTT krediti -DTT-nin məzmununa və həcminə uyğun olaraq onun mənimsənilməsinə ayrılan vaxtın ölçü vahidi;

1.3.3. keçid dövrü- bu Qaydalar qüvvəyə mindikdən sonrakı ilk 5 il;

1.3.4. fərdi peşəkar inkişaf planı - növbəti təqvim ili üçün DTT üzrə həyata keçiriləcək fəaliyyətlərin əks olunduğu təsdiq edilmiş sənəd;

1.3.5. peşəkar inkişafın illik hesabatı - cari ildə həyata keçirilən DTT fəaliyyətlərinin əks olunduğu təsdiq edilmiş sənəd;

1.3.6. sertifikasiya dövrü - sertifikasiyaya və ya təkrar sertifikasiyaya qədərki dövr.

1.4. Bu Qaydalarda istifadə olunan digər anlayışlar səhiyyə və təhsil sahəsindəki normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. DTT-nin məzmunu

2.1. DTT ali tibb təhsilini təsdiq edən sənədin verildiyi gündən başlayır və həkimin peşəkar fəaliyyəti dövrü davam edir.

2.2. DTT aşağıdakı metodlardan birgə yaxud ayrılıqda istifadə edilməklə həyata keçirilir:

2.2.1. təkmilləşdirmə kursları;

2.2.2. toplanma sistemi.

2.3. Metoddan asılı olmayaraq, DTT-nin zəruri miqdarının hesablanması DTT-nin kreditləri vasitəsilə həyata keçirilir.

## 3. Təkmilləşdirmə kursları

3.1. Təkmilləşdirmə kursları Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu tərəfindən müvafiq ixtisaslar üzrə təhsil proqramlarının modulları əsasında həyata keçirilir.

3.2. Təkmilləşdirmə kursları əyani və distant (məsafədən) formada təşkil edilir.

3.3. Təkmilləşdirmə kursunun minimal müddəti 1 həftədən az, maksimal müddəti isə 2 həftədən çox olmamalıdır (keçid dövrü istisna olmaqla).

## 4. Toplanma sistemi

4.1. Toplanma sistemi həkimin ölkədə və ya beynəlxalq səviyyədə akkreditə olunmuş DTT üzrə tədris yaxud elmi tədbirlərdə iştirakı, elmi, pedaqoji, həmçinin müstəqil DTT fəaliyyəti vasitəsilə kredit vahidlərinin yığılması yolu ilə həyata keçirilir.

4.2. Toplanma sisteminin DTT üzrə akkreditə olunmuş tədris və elmi tədbirlərinə aiddir:

4.2.1. ölkədə səhiyyə, elm və təhsil müəssisələri, peşəkar cəmiyyətlər və digər müəssisə və təşkilatlar tərəfindən keçirilən DTT üzrə akkreditə olunmuş konqres, konfrans, simpozium, seminar, treninq və s. elmi və tədris tədbirləri;

4.2.2. beynəlxalq səviyyədə DTT üzrə akkreditə olunmuş müəssisələr və təşkilatlar tərəfindən bilavasitə, yaxud onların təşkilatçılığı ilə Azərbaycan Respublikasında, yaxud xarici dövlətdə keçirilən konqres, konfrans, simpozium, seminar, treninq, elmi və tədris tədbirləri;

4.2.3. DTT üzrə akkreditə olunmuş ölkədə yaxud xarici dövlətdə keçirilən distant tədris proqramları.

4.3. DTT üzrə tədris və elmi tədbirlər, proqramlar Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditə olunur.

4.4. Elmi və pedaqoji fəaliyyətlərə aiddir:

4.4.1. ixtisas üzrə fəlsəfə doktoru və ya tibb elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi ilə əlaqədar elmi fəaliyyət (dissertasiya işinin tamamlanması və müvafiq elmi dərəcənin müdafiəsi);

4.4.2. beynəlxalq resenziyalı və ya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qəbul edilmiş jurnallarda, elmi məcmuələrdə, elmi dövri mətbuatda, elmi tədbirlərin nəşrində, qeydiyyatdan keçmiş elmi elektron nəşrlərdə nəticələri dərc olunmuş ixtisas üzrə digər elmi fəaliyyət;

4.4.3. tibbi yardım göstərilməsinin, diaqnostikanın, müalicənin, tibbi texnologiya, yaxud texnikanın yeni metodlarının işlənib hazırlanması;

4.4.4. ixtisas üzrə milli rəhbərliyin, dərsliyin, tədris və metodik vəsaitlərin, monoqrafiyanın, metodik tövsiyələrin, təhsil proqramlarının (kurikulumların) hazırlanması;

4.4.5. tibb təhsili və ixtisas üzrə həkimləri təkmilləşdirmə proqramları çərçivəsində dərs verilməsi;

4.4.6. rezidentin (rezidentlərin) işinin kurasiyası;

4.4.7. ali baza tibb təhsili alan tələbələrin yay təcrübələrinin kurasiyası;

4.4.8. ölkədə, xarici və ya beynəlxalq səviyyədə akkreditə olunmuş DTT proqramları çərçivəsində ixtisas üzrə seminarların, treninqlərin aparılması və digər tədris fəaliyyətinin həyata keçirilməsi.

4.5. Müstəqil fəaliyyətə aşağıdakılar aiddir:

4.5.1. ixtisas üzrə elmi məqalələrin və tibbi ədəbiyyatın mütaliəsi;

4.5.2. ixtisas üzrə audiovizual dinləmələr;

4.5.3. yeni diaqnostika və müalicə metodlarını, tibb texnologiyaları və texnikasını mənimsəmək məqsədi ilə ölkədə və ya xaricdə yerləşən tibb müəssisələrində ixtisas üzrə təcrübə keçmək.

**5. DTT kreditləri və onların hesablanması**

5.1. DTT kreditlərinə aiddir:

5.1.1. təkmilləşdirmə kursları nəticəsində əldə olunan kreditlər;

5.1.2. toplanma sisteminə daxil olan fəaliyyətlər nəticəsində əldə olunan kreditlər.

5.2. Kreditlərin hesablanması aşağıdakı qaydada həyata keçirilir:

5.2.1. sertifikasiya dövrü ərzində toplanmış kreditlərin hesablanması həkim tərəfindən müstəqil həyata keçirilir və nazirlik tərəfindən təsdiqlənmiş formaya uyğun tərtib olunmuş sertifikasiya dövrü ərzində fərdi peşəkar inkişafın illik hesabatında əks etdirilir;

5.2.2. fərdi peşəkar inkişafın illik hesabatı həkimin işlədiyi müəssisənin rəhbəri tərəfindən təsdiq olunduqdan sonra kreditlər ilkin olaraq hesaba alınmış sayılır;

5.2.3. sertifikasiya dövrü ərzində toplanmış kredit vahidlərinin yekun hesablanması və təsdiqi mərkəzləşmiş qaydada nazirliyin Sertifikasiya Şurası tərəfindən həyata keçirilir;

5.2.4. sertifikasiya dövrünün kreditləri hesablanarkən həm sertifikasiya dövrünün hər ili ərzində toplanmış kreditlər, həm də bütün sertifikasiya dövrü ərzində toplanmış kreditlərin ümumi miqdarı nəzərə alınır;

5.2.5. sertifikasiya dövrü ərzində həkim hər il orta hesabla 48 kredit olmaqla minimum 240 kredit toplamalıdır;

5.2.6. sertifikasiya dövründə DTT-nin minimal zəruri miqdarının toplanması həkimin sertifikasiya prosesinə buraxılması üçün mütləq şərtdir;

5.2.7. həkim sertifikasiya dövrünün ilk 4 ili ərzində 240 və daha artıq kredit topladıqda, sertifikasiya dövrünün son ili ərzində illik orta kreditlərin azı 50%-ni (24 kredit) toplamalıdır;

5.2.8. cari ildə kreditlərin ümumi miqdarı 48 kreditdən çoxdursa, onların artıq (izafi) miqdarı cari ildən əvvəlki və ya sonrakı illərdə toplanan orta illik kreditin çatmayan miqdarına əlavə edilir;

5.2.9. cari hesabat ilinin artıq (izafi) kreditləri hesabına hesabat dövrünə qəbul edilmiş əlavə kreditlərin miqdarı hesabat ili üçün kreditlərin tələb olunan minimumunun 50%-dən, yəni 24 kreditdən çox olmamalıdır;

5.2.10. təkmilləşdirmə kurslarından istifadə olunduqda, həkimin sertifikasiya dövrü ərzində hər bir tədris modulunu keçməsinə görə kreditlərin hesablanması bir dəfə həyata keçirilir;

5.2.11. təkmilləşdirmə kurslarının və toplanma sisteminə daxil olan tədbirlərin kredit ekvivalenti və həmin kreditlərin təsdiqlənməsi üçün tələb olunan sənədlər bu Qaydaların 1 nömrəli əlavəsində göstərilmişdir.

### 6. Keçid dövründə DTT üzrə kreditlərin hesablanması

6.1. Təkmilləşdirmə kurslarından istifadə olunduqda ixtisas üzrə təhsil proqramının bütün modullarını bir (və ya bir neçə) təkmilləşdirmə kursu ilə keçərək 240 kreditin toplanması həkimin sertifikasiya prosesinə buraxılması üçün kifayət edir.

6.2. Keçid dövründə həkimin sertifikasiyaya buraxılması üçün sertifikasiyaya qədər qalan hər il üzrə minimum 48 kredit toplaması mütləqdir.

### 7. DTT-nin təşkili

7.1. Səhiyyə müəssisəsinin rəhbəri onun tabeliyində olan həkimlərin DTT almaları üçün şərait yaradılmasını təmin etməlidir.

7.2. Təkmilləşdirmə kurslarından istifadə edildikdə, səhiyyə müəssisəsinin rəhbəri tabeliyində olan həkimlərin həmin kurslarda iştirakını təmin edir.

7.3. Toplanma sistemindən istifadə edən həkimin DTT üzrə tədbirlərə göndərilməsi onun səhiyyə müəssisəsinin rəhbərinə müraciəti əsasında həyata keçirilir.

7.4. Təkmilləşdirmə kurslarından və toplama sistemindən birgə istifadə edən həkimin təkmilləşdirmə kurslarından keçməsi onun Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna müraciəti əsasında həyata keçirilir.

### 8. Fərdi peşəkar inkişaf planı və peşəkar inkişafın illik hesabatı

8.1. Həkimin sertifikasiya dövrü ərzində DTT üzrə fəaliyyəti onun tərəfindən tərtib olunmuş növbəti təqvim ilinə nəzərdə tutulmuş fərdi peşəkar inkişaf planı əsasında həyata keçirilir.

8.2. Fərdi peşəkar inkişaf planı bu Qaydaların 2 nömrəli əlavəsində göstərilən formaya uyğun olaraq tərtib olunur və cari təqvim ilinin son ayı ərzində təsdiq üçün müəssisənin rəhbərinə təqdim olunur.

8.3. Həkimin sertifikasiya dövrü ərzində DTT üzrə fəaliyyəti təqvim ilinin başa çatmasından sonra bu Qaydaların 3 nömrəli əlavəsində göstərilən formaya uyğun tərtib olunan peşəkar inkişafın illik hesabatında əks olunur.

8.4. Fərdi peşəkar inkişafın illik hesabatına həkimin DTT üzrə fəaliyyətini sübut edən bu Qaydaların 1 nömrəli əlavəsində göstərilən təsdiqləyici sənədlərin surətləri əlavə olunur.

8.5. Müstəqil DTT fəaliyyətlərinin (ixtisas üzrə təcrübə keçmək istisna olmaqla) sübutu üçün təsdiqləyici sənəd tələb olunmur.

8.6. Həkimin fərdi peşəkar inkişaf planı və peşəkar inkişafın illik hesabatı səhiyyə müəssisəsinin rəhbəri tərəfindən təsdiq olunur.

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 20.06.2017-ci il tarixli
45 nömrəli əmri ilə təsdiq edilmişdir
müvəqqəti Qaydalara 1 nömrəli əlavə

## Həkimlərin DTT kreditlərinin hesablanması cədvəli

| № | DTT fəaliyyətinin növü | Hesablanan kreditlərin miqdarı | Tələb olunan təsdiqləyici sənəd(lər) | Qeyd |
|---|---|---|---|---|
| 1. | Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu tərəfindən həyata keçirilən təkmilləşdirmə kursları | 1 akademik saata 1 kredit nisbəti ilə hesablanır | Şəhadətnamə | |
| 2. | Ölkədə və xaricdə keçirilən DTT üzrə akkreditə olunmuş konqres, konfrans, simpozium, seminar, treninq və s. elmi və tədris tədbirləri | 1 akademik saata 1 kredit nisbəti ilə hesablanır; tədbir zamanı şifahi və ya əyani prezentasiyaya görə əlavə olaraq 5 kredit verilir. Xaricdə keçirilən tədbir üçün təsdiqləyici sənəddə göstərilən kreditlərin miqdarına uyğun olaraq hesablanır. | Sertifikat, diplom, şəhadətnamə, vəsiqə və s. (şifahi və ya əyani prezentasiyanın keçirilməsi tədbirin proqramında qeyd olunmalıdır) | Təsdiqləyici sənəddə həm saatlar, həm də tədbirin proqramı göstərilməzsə, saatların miqdarı tədbirin keçirildiyi müddətə əsasən bir günə 6 akademik saat olmaqla müəyyən edilir. |
| 3. | DTT üzrə akkreditə olunmuş ölkədə yaxud xarici dövlətdə keçirilən distant tədris proqramları | Distant tədris materiallarının kredit yükünə uyğun hesablanır. | Sertifikat, diplom, şəhadətnamə, vəsiqə və s. | Distant tədris proqramının kredit yükü göstərilməzsə, təsdiqləyici sənəddə və ya tədris proqramında göstərilən saatların miqdarına əsasən 1 akademik saata 0,5 kredit olmaqla müəyyən edilir. Distant tədris proqramlarına görə hesablanan kreditlərin maksimal miqdarı hesabat ilinə 12 kredit təşkil edir. |
| 4. | İxtisas üzrə fəlsəfə doktoru elmi dərəcəsi ilə əlaqədar fəaliyyət | 48 kredit | Fəlsəfə doktoru diplomunun surəti | Kreditlər elmi işin tamamlandığı vaxta uyğun olan sertifikasıya dövrü üzrə bir dəfə hesablanır. |

| | | | | |
|---|---|---|---|---|
| 5. | İxtisas üzrə tibb elmləri doktoru elmi dərəcəsi ilə əlaqədar fəaliyyət | 60 kredit | Tibb elmləri doktoru diplomunun surəti | Kreditlər elmi işin tamamlandığı vaxta uyğun olan sertifikasiya dövrü üzrə bir dəfə hesablanır. |
| 6. | Beynəlxalq resenziyalı və ya Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən qəbul edilmiş jurnallarda, elmi məcmuələrdə, elmi dövri mətbuatda, elmi tədbirlərin nəşrində, qeydiyyatdan keçmiş elmi elektron nəşrlərdə nəticələri dərc olunmuş ixtisas üzrə elmi fəaliyyət | Birinci müəllif - 6 kredit; həmmüəllif(lər) - 3 kredit | Məqalənin və jurnalın birinci səhifəsinin surəti. | Kreditlər məqalənin tarixinə uyğun olan hesabat ili üzrə bir dəfə hesablanır. |
| 7. | Tibbi yardım göstərilməsinin, diaqnostikanın, müalicənin, tibbi texnologiya, yaxud texnikanın yeni metodlarının işlənib hazırlanması | 60 kredit | Kəşfin patentinin surəti | Kreditlər kəşfin patentinin alındığı sertifikasiya dövrü üzrə bir dəfə hesablanır. |
| 8. | İxtisas üzrə milli rəhbərliyin hazırlanması | Birinci müəllif – 60 kredit; həmmüəllif(lər) – 36 kredit; fəslin müəllifi – 24 kredit; elmi redaktor – 36 kredit; rəyçi(lər) – 12 kredit | Nəşrin titul vərəqinin surəti | Kreditlər nəşrin tarixinə uyğun olan hesabat ili üzrə bir dəfə hesablanır. |
| 9. | İxtisas üzrə dərsliyin hazırlanması | Birinci müəllif – 48 kredit; həmmüəllif(lər) – 24 kredit; fəslin müəllifi – 18 kredit; elmi redaktor – 24 kredit; rəyçi(lər) – 12 kredit | Nəşrin titul vərəqinin surəti | Kreditlər nəşrin tarixinə uyğun olan hesabat ili üzrə bir dəfə hesablanır. |
| 10. | İxtisas üzrə tədris vəsaitinin hazırlanması | Birinci müəllif – 24 kredit; həmmüəllif(lər) – 12 kredit; fəslin müəllifi – 6 kredit; elmi redaktor – 12 kredit; rəyçi(lər) –3 kredit | Nəşrin titul vərəqinin surəti | Kreditlər nəşrin tarixinə uyğun olan hesabat ili üzrə bir dəfə hesablanır. |
| 11. | İxtisas üzrə metodik rəhbərliyin (vəsaitin) və tövsiyənin hazırlanması | Birinci müəllif – 24 kredit; həmmüəllif(lər) –12 kredit; elmi redaktor – 12 kredit; rəyçi(lər) – 3 kredit | Nəşrin titul vərəqinin surəti | Kreditlər nəşrin tarixinə uyğun olan hesabat ili üzrə bir dəfə hesablanır. |
| 12. | İxtisas üzrə monoqrafiyanın yazılması | 24 kredit | Nəşrin titul vərəqinin surəti | Kreditlər nəşrin tarixinə uyğun olan hesabat ili üzrə bir dəfə hesablanır. |

| | | | | |
|---|---|---|---|---|
| 13. | İxtisas üzrə təhsil proqramının (kurikulumun) hazırlanması | Birinci müəllif – 24 kredit; həmmüəllif – 12 kredit; elmi redaktor – 12 kredit; rəyçi –3 kredit | Proqramları təsdiqləyən sənəd | Kreditlər proqramın təsdiqinin tarixinə uyğun olan hesabat ili üzrə bir dəfə hesablanır. Sonrakı illər və ya 5-illik sertifikasiya dövrləri üçün kreditlərin hesablanmasına yol verilmir. |
| 14. | Tibb təhsili, o cümlədən ixtisas üzrə həkimləri təkmilləşdirmə proqramları çərçivəsində dərs verilməsi | 12 akademik saata 1 kredit nisbəti ilə hesablanır | Təsdiq edilmiş müəllimlik fəaliyyəti haqqında illik hesabat | İxtisas üzrə bir mövzu üzrə dərs verməyə görə kreditlər sertifikasiya dövrü ərzində bir dəfə hesablanır. |
| 15. | Rezident(lər)in işinin kurasiyası | İl ərzində bir rezidentin işinin kurasiyası – 6 kredit | Təsdiq edilmiş rezident(lər)in işinin kurasiyası haqqında hesabat | |
| 16. | Tibb təhsili alan tələbələrin yay təcrübələrinin kurasiyası | İldə 1 dəfə 5 kredit | Arayış | |
| 17. | Ölkədə, xarici və ya beynəlxalq səviyyədə akkreditə olunmuş DTT proqramları çərçivəsində ixtisas üzrə seminarların, treninqlərin aparılması və digər tədris fəaliyyətinin həyata keçirilməsi | 6 akademik saata 1 kredit nisbəti ilə hesablanır | Təsdiq edilmiş müəllimlik fəaliyyəti haqqında illik hesabat | İxtisas üzrə bir mövzu üzrə dərs verməyə görə kreditlər sertifikasiya dövrü ərzində bir dəfə hesablanır. |
| 18. | Yeni diaqnostika və müalicə metodlarını, tibb texnologiyaları və texnikasını mənimsəmək məqsədi ilə ölkədə, yaxud xaricdə yerləşən tibb müəssisəsində ixtisas üzrə təcrübə keçmək | 1 iş gününə 1 kredit nisbəti ilə hesablanır | İstehsalat praktikası və/və ya təcrübə keçməyi təsdiq edən sertifikat, diplom, şəhadətnamə, vəsiqə və s. | Hesabat dövrü ərzində cəmi 24-dən çox olmayaraq kredit hesablanır. |
| 19. | İxtisas üzrə elmi məqalələrin, tibbi ədəbiyyatın mütaliəsi, yaxud audiovizual dinləmələr | Nəşrin 30 səhifəsinə, audiovizual dinləmələrin isə 6 saatına 1 kredit nisbəti ilə hesablanır | Peşəkar inkişafın illik hesabatı | Peşəkar inkişafın illik hesabatında səhifələrin sayı qeyd olunmaqla öyrənilmiş nəşrlərə biblioqrafik istinadlar göstərilməlidir. Mütaliə yaxud audiovizual dinləmələrə görə hesablanan kreditlərin maksimal miqdarı hesabat ilinə 5 kredit təşkil edir. |

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 20.06.2017-ci il tarixli
45 nömrəli əmri ilə təsdiq edilmişdir
müvəqqəti Qaydalara 2 nömrəli əlavə

## Həkimin fərdi peşəkar inkişaf planı

| | | | | | |
|---|---|---|---|---|---|
| S.A.A. | | | | Registr nömrəsi | |
| Telefon | | | Elektron poçt ünvanı | | |
| İxtisası | | | | | |
| İş yeri | | | Vəzifəsi | | |
| Fərdi peşəkar inkişaf planı | | | | 20___ il üçün | |
| Cari ildə toplanması planlaşdırılan kreditlərin miqdarı | | | | | |
| Planın təsdiq olunma tarixi | | | | __/__/20___il | |
| Həkimin imzası | | Səhiyyə müəssisəsinin rəhbərinin S.A A. | | Səhiyyə müəssisəsinin rəhbərinin imzası | |

1. DDT üzrə tədris və elmi tədbirlər

Təkmilləşdirmə kursları

| Kursun adı (mövzusu) | Təhsil müəssisəsinin adı | Keçirilmə tarixi | Akademik saatların miqdarı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| Yekun: | | | | |

DTT üzrə konqres, konfrans, simpozium, seminar, treninq və s. tədris və elmi tədbirlər

| Tədbirin adı | Tədbiri keçirən təşkilat | İştirakın növü (dinləyici, məruzəçi) | Təqdim ediləcək şifahi və ya əyani prezentasiyaların miqdarı | Keçirilmə tarixi | Akademik saatların miqdarı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| Yekun | | | | | | |

DTT üzrə distant tədris proqramları

| Distant tədrisin mövzusu | Distant tədrisi keçirən təşkilat | Keçirilmə tarixi | Akademik saatların miqdarı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| Yekun | | | | |

2. Elmi və pedaqoji fəaliyyət

Fəlsəfə və ya tibb elmləri doktoru dərəcəsi almaq üçün dissertasiya işi

| Dissertasiya işinin adı | Dissertasiya işinin müdafiəsinin ili | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|
| | | |
| dissertasiya işi (fəlsəfə, tibb elmləri doktoru)<br>(altından xətt çəkin) | | |

Elmi jurnallarda dərc etdirilən elmi işlər

| Elmi işin adı | Elmi nəşrin (jurnalın) adı | Müəllif/həmmüəllif | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|
| | | | |
| | | | |
| Yekun | | | |

Tibbi yardım göstərilməsi üzrə yeni metodlar və texnologiyalar (diaqnostika, müalicə üsulları, tibbi texnologiya)

| Təsvir | Patentin gözlənilən alınma tarixi | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|
| | | |
| | | |
| Yekun | | |

**İxtisas üzrə sənədin hazırlanması (milli rəhbərlik, dərslik, tədris vəsaiti, metodik rəhbərlik (vəsait), metodik tövsiyə, monoqrafiya, təhsil proqramı)**

| Sənədin növü | Nəşrin adı | Sənədlərin hazırlanmasında iştirak* | Nəşrin tarixi | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

Qeyd: * birinci müəllif, həmmüəllif, fəslin müəllifi, elmi redaktor, rəyçi

**Tibb təhsili proqramı çərçivəsində ixtisas üzrə müəllimlik fəaliyyəti**

| Fənnin/mövzunun adı | Saatların miqdarı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|
| | | |
| | | |
| Yekun | | |

**Kurasiya işi (rezidentlərin təhsili, tələbələrin yay təcrübəsi)**

| Kurasiyanın növü | Kurasiya keçiriləcək baza | Rezidentlərin sayı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|
| | | | |
| | | | |

**DTT proqramları çərçivəsində ixtisas üzrə trener fəaliyyəti**

| Mövzunun adı | Saatların miqdarı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|
| | | |
| | | |
| Yekun | | |

### 3. Müstəqil DTT fealiyyəti

### İxtisas üzrə təcrübə keçmək

| Təcrübə keçmək planlaşdırılan müəssisə | Təcrübə keçmək planlaşdırılan iş günlərinin sayı | Təcrübə keçmə tarixləri | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|
| | | | |
| | | | |
| Yekun | | | |

### İxtisas üzrə elmi mütaliə

| Nəşrin biblioqrafik istinadı (adı, nömrəsi, müəllif(lər)i, nəşriyyat, ili) | Səhifələrin sayı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|
| | | |
| | | |
| Yekun | | |

### Audiovizual dinləmələr

| Mövzu | Mənbə | Saatların miqdarı | Toplanacaq kreditlərin miqdarı |
|---|---|---|---|
| | | | |
| | | | |
| Yekun | | | |